Zənfirə Qəzənfər qızı Quliyeva

UOT: 330.83; JEL: A19.

Azərbaycanda neft sənayesi üçün mütəxəssis hazırlığı tarixindən - Azərbaycan Dövlət Neft və Sənaye Universiteti

Xülasə

Azərbaycanda yaradılan ilk və qocaman ali təhsil müəssisələrindən biri hesab edilən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəaliyyəti, institusional inkişaf prosesi ilə bağlı araşdırmalar aparılmışdır. Araşdırmalar zamanı hər dövrün texniki-iqtisadi tələblərinə uyğun kadr hazırlığı işinin təşkilinin təkamülü xüsusiyyətləri nəzərdən keçirilərək universitetin müasir dövrdə də Azərbaycanda neft sənayesi üçün kadr hazırlığında rolu qiymətləndirilir.

***Açar sözlər**: neft, neft sənayesi, institut, universitet, akademiya, kadr hazırlığı*

Giriş

2020-ci ilin noyabr ayında əvvəllər bir qədər fərqli adlarla fəaliyyətə başlamış Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi tamam olur. Bu səbəbdən də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Universitetin 100 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalamışdır. Bir ali təhsil ocağı kimi ADNSU Azərbaycan iqtisadiyyatının, o cümlədən neft sənayesinin inkişafına misilsiz töhfələr verən kadrların hazırlanmasında çox böyük rol oynamışdır. Belə bir zəmində qeyd etmək yerinə düşərdi ki, neft resursları dünya energetik balansının əsas tərkib hissəsidir və bu səbəbdən də neft hasilatı işinin təşkili məsələsi xüsusi əhəmiyyət kəsb edir. Eyni zamanda neft ehtiyatları ilə zəngin olan ölkələrdə neft hasilatı və emalı işinin təşkili ilə bağlı yüksək ixtisaslı kadr hazırlığına, elmi araşdırmaaların aparılmasına diqqət yetirilir. Lakin nəzərə almaq lazımdır ki, neft sənayesinin uğurlu inkişafı innovasiyalar tətbiq edilmədən, həmin innovasiyaları istehsal praktikasında mənisməsyərək tətbiq edən mütəxəssislərsiz qeyri mümkündür. Qeyd etmək lazımdır ki, Azərbaycanda neft sənayesi üçün istər kadr hazırlığı, istərsə də sözügedən sahənin innovasiyalı inkişafı üçün qarışıq innovasiya siyasəti həyata keçirilir. Respublikada neft sənayesi üçün kadr hazırlığının həyata keçirildiyi əsas ali təhsil müəssisəsi Azərbaycan Dövlət Neft və Sənaye Universitetidir. Eyni zamanda respublikada neft-qaz hasilatı işini təşkil edən əsas müəssisə Azərbaycan Dövlət Neft Şirkətidir. Hər iki müəssisə dövlət müəssisələridir. Azərbaycan Respublikasında kifayət qədər mötəbər kadr potensialının formalaşması, inkişafı və qorunub saxlanılmasında Azərbaycan dövlətinin rolu böyükdür.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin təşəkkülü tarixi

Azərbaycan Respublikasında neft sənayesi üçün kadr hazırlığı işinin təşkili tarixinin 1887-ci ildən başlanıldığı qeyd olunur. 1887-ci ildə noyabrın 1-da Bakı şəhər duması tərəfindən Bakıda texniki məktəbin yaradılması haqqında qərar qəbul olundu. 1896-cı ildə texniki məktəb "Bakı aşağı səviyyəli texniki məktəbə" çevrildi, 1896-1905-ci illər ərzində bu məktəbin mexanika şöbəsi üzrə 50 nəfər, inşaat şöbəsi üzrə isə 55 nəfər mütəxəssis hazırlanmışdı. 1910-cu ildə mexanika şöbəsinə neft-texniki və elektromexanika istiqamətlər daxil idi. Qeyd etmək lazımdır ki, həmin dövrdə Bakıda 2 hazırlıq sinifi və sənət məktəbi olan 4 sinifli orta texniki məktəb 1905-ilin yanvarından fəaliyyətə başladı. Daha sonra həmin təhsil müəssisələri 1918-ci ilin ortalarında Bakı Politexnik məktəbi adlandırılmışdır. Məktəb 3 şöbədən (neft sənayesi,elektromexanika, arxitektura və inşaat) şöbələrindən ibarət idi. Sovet

©Zənfirə Qəzənfər qızı Quliyeva t.f.d., dos. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti. E-mail:hseva@list.ru
© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

dövründə neft sənayesi üçün mtəxəssis hazırlığı işinin təşkili ilə əlaqədar həyata keçirilən ilk tədbirlərdən biri kimi N.Nərimanovun 1920-ci il noyabrın 14-də Bakı şəhərində Politexnik İnstitutunun yaradılması haqqında dekreti imzalaması göstərilə bilər. Bakı Politexnik Məktəbinin bazsında 5 fakültədən (neft sənayesi,elektromexanika, inşaat, kənd-təsrrüfatı və iqtisadiyat) ibarət Bakı Politexnik İnstitutu təsis olundu. İnstituta M.Əzizbəyovun adı verildi. 1928-ci ildən adı çəkilən elm və təhsil ocağı Azərbaycan Politexnik İnstitutu,1930-cu ildən Azərbaycan Neft İnstitutu adlandırıldı. 30-cu illərin əvvəllərində Azərbaycan Neft İnstitutunun strukturuna aşağıdakı fakültələr daxil idi. 1) mexanika fakültəsi, 2) neft-mədən hasilatı, 3) geoloji kəşfiyyat, 4) neft-kimya, 5) inşaat, 6) nəqliyyat, 6) sənaye iqtisad. 1931-ci ildə Azərbaycan Neft İnstitutu Qırmızı Əmək Bayrağı ordeni ilə mükafatlandırıldı. Eyni zamanda qeyd etmək lazımdır ki, 1931-ci ildə əvvəlcə İnstiutun tərkibində qiyabi Sənaye şöbəsi yaradıldı. Daha sonra adı çəkilən şöbə müstəqil Sənye İnstituna çevrildı. 1932-ci ildən əvvəlki illərdə yaradılmış təhsil strukturlarından fərqli olaraq yeni yaradılmış strukturların təyinatı neft sənayesinin təşkili, planlaşdırılması, idarəedilməsi üzrə yüksək ixtisaslı mütəxəssis hazırlığının həyata keçirilməsi idi. Lakin sözügedən təhsil ocağının institusional inkişafı prosesi davam edirdi və bu proses demək olar ki, müasir dövrdə də davam edir. 1934-cü ilin sentyabrında Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Neft İnstitutunun bazasında Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Sənaye İnstitutu yaradıldı. Müvafiq olaraq İnstitutun tərkibinə aşağıdakı fakültələr daxil idi. dağ-mədən fakültəsində- neft mədənlərinin geoloji kəşfiyyatı, neft-texnologiyası fakültəsində neftin emalı, mexanika energetika fakülətəsində inşaat texnikası və energetik, mühəndis iqtisad fakültəsində iqtisadçı mühəndis, ümumi texniki fakültəsində neft sənayesi üçün mühəndis texnoloqlar, neft maşınları quruluşu fakülətisində neft maşınqayırması, energetika fakültəsində- energetiklər, memarlıq-inşaat fakülətisində memar inşaatçılar hazırlanırdı **[2,** №105, 1935**].** 1936-cı ildən etibarən isə İnstitutda tədris planının tərkibi dəyişdirildi, ümumitexniki fənnlərlə yanaşı ixtisas hazırlığı kursları xeyli zənginləşdirildi [3, s. 162-164]

Qeyd etmək lazımdır ki, Qırmızı Əmək Bayrağı Ordenli Azərbaycan Sənaye İnstitutu bu adla 1959-cu ilə qədər fəaliyyət göstərmişdir. Daha sonra 1959-cu ildən İnstitut Azərbaycan Neft Kimya İnstitutu adalandırıldı və bu adla 1991-ci ilə qədər fəaliyyət göstərmişdir. Eyni zamanda 1950-ci ildən İnstitutun 3 fakültəsi bazasında Azərbaycan Politexnik İnstitutu təsis edildi. 1950-ci ildən İnstitutun 3 fakültəsi əsasında Azərbaycan Politexnik İnstitutu təsis edildi. Eyni zamanda sözügedən institutda mühəndis kadrları hazırlayan 7 fakültə (geoloji-kəşviyyat, neft-mədən, kimya-texnologiyası, neftmexanikası, energetika, İstehsal proseslərinin avtomatlaşdırılması, mühəndis –iqtisad), xarici tələbələrin təhsili üçün hazırlıq fakültəsi, sənayenin mühəndis-texniki işçilərinin, ictimai peşə mütəxəssislərinin ixtisaslarının artırılmasının gerçəkləşdirildiyi 4 fakültə, həmçinin məhsulun keyfiyyətinin sotlaşdırılması və metallurgiya sahəsində çalışan rəhbər mühəndis –texnik işçilərin ixtisaslarını artırılmasına xidmət edən 57 kafedra ,14 elmi-tədqiqat laboratoriyası, 6 sahə laboratoriyası və s. mövcud idi. Azərbaycan Neft-Kimya İnstitutunun yaradılmasında məqsəd bütün İttifaqda neft və neftkimya sənayesi üçün yüksək ixtisaslı mühəndis və elmi kadrlarının hazırlanmasının həyata keçeirilməsi idi. 1967-ci ildə İnstitutun nəzdində neft sənayesi işçilərinin ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi kursları təşkil edildi və 1969-cu ildə ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi fakültəsinə çevrildi. 1972-ci ildə neft –qaz, neftkmiya sənayesi üçün rəhbər işçilərin hazırlanması məqsədi ilə bütün Sovet İttifaqında yeganə olan "Sənaye İstehsalı təşkilatçıları" fakültəsi fəaliyyət göstərməyə başladı. Daha sonra 1978-ci ildə aprelin 6-da SSRİ Nazirlər Sovetinin 271 nömrəli qərarına əsasən Azərbaycan Neft-Kimya İnsitutu SSRİ-nin 70 aparıcı ali məktəbləri siyasına daxil edildi.

XX əsrin 80-ci illərinin əvvəllərində İnstitutda təxmini olaraq 15 minə yaxın tələbə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

təhsil alırdı. Burada 1000 yaxın professor-müəllim heyəti fəaliyyət göstərirdi. Müəllimlərdən 56 nəfəri elmlər doktoru, professor, 435 nəfəri elmlər namizədi, dossent idi. Daha bir mühüm tarixi fakt kimi qeyd edilməlidir ki, 1962-ci ildən İnstitutun Sumqayıt şəhərində filialı yaradıldı [1, I c.,s.164]. Qeyd etmək lazımdır ki, hal-hazırda həmin təhsil müəssisəsi müstəqil elm-təhsil müəssisəsi, Sumqayıt Dövlət Universiteti kimi fəaliyyət göstərir. Daha bir vacib məqamın xüsusi olaraq qeyd edilməsi yerinə düşərdi ki, Azərbaycan Respublikası öz dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesi milli iqtisadiyyatın lokomotivi rolunu oynması səbəbindən müasir dövrün tələblərinə cavab verən mütəxəssis hazırlığı zərurəti kadr hazırlığı işinin yenidən təşkil edilməsi, kəmiyyət və keyfiyyət meyyarlarının yüksəldilməsini dövrün başlıca tələbinə çevirdi.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 137 nömrəli, 21 mart 1992-ci il tarixli qərarı ilə sözügedən təhsil müəssisəsi Azərbaycan Dövlət Neft Akademiyası (ADNA) adlandırıldı. ADNA-da 1991-2000-ci illərdə "Geoloji-kəşfiyyat", "Qaz-neft-mədən", "Kimya texnologiya", "Neftmexanika", "Energetika", "İstehsalat proseslərinin avtomatlaşdırılması", "Mühəndis-iqtisad" **və** "Əcnəbi vətəndaşlar üçün hazırlıq" fakültələri fəaliyyət göstərmişdir. İnstiutda bakalavrların ilk buraxılışı, magistraturaturaya ilk qəbul 1997-ci ildə təşkil olundu. 90-cı illərdə 24 istiqamət üzrə 7 əsas fakultədə mütəxəssis hazırlığı həyata keçirilirdi. Həmin dövrdə institutda 7 əsas fakultə, 63 kafedra, 18 elmi-tədqiqat laboratoriyası, 2 elmi-tədqiqat və ixtisas hazırlığı səviyyəsinin yüksəldilməsi və sənaye müəssisələri üçün mütəxəssislərin hazırlanması institutu fəaliyyət göstərirdi. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2015-ci il 3 sentyabr tarixli Sərəncamına əsasən Azərbaycan Dövlət Neft Akademiyası Azərbaycan Dövlət Neft və Sənaye Universiteti adlandırıldı. Göründüyü kimi, Azərbaycanda neft sənayesi üçün mütəxəssis hazırlığı prosesi, o cümlədən Azərbaycan Dövlət Neft və Sənaye Universiteti uzun inkişaf yolu keçmişdir. İnstitut bu illər ərzində həm ciddi kəmiyyət və keyfiyyət dəyişiklikləri ilə zəngin olan institusional təkamül prosesi keçirmişdir. Lakin ən ciddi dəyişikliklər Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsi dövründə özünü büruzə verir.

Müvafiq olaraq müstəqillik illərində ADNSU-nun fəaliyyəti ilə bağlı bəzi tarixi faktlara diqqət yetirilməsi yerinə düşərdi. Hal-hazırda İnstitutda müvafiq fakultələrdə aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Geoloji-kəşfiyyat fakültəsi- geologiya mühəndisliyi, hidrogeologiya mühəndisliyi, geofizika mühəndisliyi, dağ-mədən mühəndisliyi;

Neft-qaz mədən mühəndisliyi- neft-qaz mühəndisliyi, neft-qaz qurğuları mühəndisliyi, geofizika mühəndisliyi, fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsiliyi; Kimya-texnologiya fakültəsi-kimya mühəndisliyi, ekologiya mühəndisliyi; Neft-mexanika fakültəsi-Materialşünaslıq mühəndisliyi, Enerji maşınqayırması mühəndisliyi, Texnoloji maşın və avadanlıqlar mühəndisliyi, Mexanika mühəndisliyi, Təkrar emal və bərpa texnologiyaları mühəndisliyi; İnformasiya texnologiyaları və idarəetmə fakültəsi-Kompüter elmləri, Cihazqayırma mühəndisliyi, Elektronika, telekommunikasıya və radiotexnika mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, Mexatronika və robototexnika mühəndisliyi, İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi, Kompüter mühəndisliyi, Metereologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi, Biotibbi texnika mühəndisliyi, İnformasiya texnologiyaları, Sistem mühəndisliyi; İqtisadiyyat və menecment fakültəsi-Dünya iqtisadiyyatı, İstilik energetikası mühəndisliyi, menecment, marketinq ixtisasları üzrə kadrlar hazırlanır.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına əsasən ADNSU-nun nəzdində Azərbaycan-Fransız Universiteti (UFAZ) fəaliyyət göstəririr. Tədris ingilis dilində aparılır, məzunlarına ADNSU diplomu ilə yanaşı Fransanın və dünyanın nüfuzlu universitetlərindən biri olan Strasburq Universitetinin diplomunu qazanmaq imkanı da təqdim edən UFAZ-a ilk

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

olaraq 143 tələbə qəbul edildi, bütün bunlar isə o deməkdir ki, universitetin divarları arxasında 2400-dən artıq gənc texniki və mühəndis ixtisaslarına yiyələnərək ölkə iqtisadiyyatına yüksək ixtisaslı kadrlar kimi öz töhfələrini vermək imkanı əldə etmişlər.

ADNSU-da "Easy start" məktəbi də fəaliyyət göstərir. Yaradılmış məktəb elm və sənayenin sintezinin reallaşdırılmasına xidmət edir. Burada tələbə və müəllim heyətinin birlikdə iştirak etdiyi elmi proqram və layihələrinin reallaşdırılması, xüsusi biznes fəaliyyəti proqramalarının reallaşdırılması nəzərdə tutulur. Ümumilli lider cənab Heydər Əliyevin də dediyi kimi, "İnstitut öz varlığı ərzində bütün ölkədə ali təhsilin, xüsusən ali neft təhsilinin inkişafına sanballı kömək göstərmişdir", "institutun respublikamız qarşısında xidmətləri böyükdür", "institutu bitirən kadrlar Azərbaycanın mühəndis-texniki və elmi işçilərinin özəyi olmuşdur". Bütün bu sözlər Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin fəaliyyətinə verilən ən layiqli qiymətdir. Göründüyü kimi, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində Azərbycan İqtisadiyyatının strateji əhəmiyyət kəsb edən sahəsi, yanacaq-enerji və kimya texnologiyası kompleksi üçün mütəxəssis hazırlığı həyata keçirilir. Kadr hazırlığı ilə 100-dən çox elmlər doktoru, professor, 600-dən çox elmlər namizədi, dosent məşğul olur. Hal-hazırda Universitetdə 63 kafedra, aspirantura və doktorantura, iki elmi-tədqiqat institutu, 32 elmi-tədqiqat problem laboratoriyası, "Sənaye müəssisələri işçilərinin ixtisasartırma və yenidən hazırlanma institutu" fəaliyyət göstərir.

İnstitutun mövcud olduğu illər ərzində 70000-dən çox mühəndis, 2000-dən çox elmlər namizədi, 250-dən çox elmlər doktoru hazırlanmışdır. O cümlədən universitetdə 60-dan çox ölkə üçün 300 nəfər mühəndis, bakalavr və magistr dərəcəli texniki kadr və 270 nəfər elmlər namizədi və doktoru hazırlanmışdır. Qeyd etmək lazımdır ki, müasir dövrün tələbləri dünyada və Azərbaycanda neft sənayesi qarşısında daha yüksək vəzifələr qoyur. Neft yataqlarının işlənilməsi, neft hasilatı və emalı ən yeni texnologiyaların tətbiqi zərurətini gündəmə gətmriəkdədir. Belə bir konteksdə Xəzərdə və quruda yeni yataqların işlənməsi, neft konsorsiumlarının fəaliyyətə başlaması ilə əlaqədar xarici ölkə şirkətləri ilə əməkdaşlıq və onun gələcək perspektivləri ADNSU qarşısında bazar iqtisadiyyatı şəraitində işləyə bilən, müasir texnika və texnologiyanı mənimsəyən və tətbiq etməyi bacaran mütəxəssislərin hazırlanması zərurətini getdikcə daha çox hiss etdirir. Bütün bunlar çox aydın dərk edilərək universitet məzunlarının yüksək texnologiyalar üzrə mütəxəssis kimi yetişdirilməsinə də xüsusi diqqət yetirilir.

Nümunə üçün universitetin İnformasiya texnologiyaları və idarəetmə fakültəsində - Kompüter elmləri, Cihazqayırma mühəndisliyi, Elektronika, telekommunikasıya və radiotexnika mühəndisliyi, Proseslərin avtomatlaşdırılması mühəndisliyi, Mexatronika və robototexnika mühəndisliyi, İnformasiya texnologiyaları və sistemləri mühəndisliyi, Kompüter mühəndisliyi, Metrologiya, standartlaşdırma və sertifikasiya mühəndisliyi, Biotibbi texnika mühəndisliyi, İnformasiya texnologiyaları, Sistem mühəndisliyi kimi ixtisaslar üzrə mütəxəssislərin hazırlanması xüsusi olaraq qeyd oluna bilər. Daha bir vacib məsələ kimi xüsusi olaraq qeyd etmək yerinə düşərdi ki, sözügedən ali təhsil ocağında iqtisadi biliklərin tədrisi ilə yanaşı iqtisadi problemlərin araşdırılması mühüm yer tutur. Müstəqillik illərində bu proses yeni vüsət almaqdadır. Univeritetin "İqtisadiyyat və mencment" fakültəsinin" Sənaye iqtisadiyyatı və menecment", **"**Enerji və neft-kimya sahələrinin iqtisadiyyatı və menecment" kafedralarının əməkdaşları iqtisadi biliklərin tədrisi ilə yanaşı dünya və Azərbaycan iqtisadiyyatının aktual məsələləri ilə əlaqədar araşdırmalar aparırlar.

Nəticə

Azərbaycanda neft sənayesi üçün mütəxəssislərin hazırlanmasının uzun illəri əhatə edən tarixi vardır. Hələ XIX əsrin sonlarından ilk təhsil qurumları, texniki məktəb və kurslar, qruplar təşkil edilməyə başlandı. Sonrakı illərdə neft sənayesi üçün kadr hazırlığı işi üçün,

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

xüsusi ilə də yüksək ixtisaslı kadr hazırlığı işinin təşkili üçün ali məktəb, o cümlədən bir sıra kurslar təşkil olundu. Həmin təhsil müəssiələrinin fəaliyyətinin təşkili və idarə edilməsində, bütünlükdə Azərbycanda neft sənayesi üçün mütəxəssislərin hazırlanması işinin təşkilində universitetin sələfləri hesab edilən və müxtəlif adlarla fəaliyyət göstərən təhsil müəssisəsinin misilsiz xidmətləri vardır.

Ədəbiyyat

1. Azərbaycan Sovet Ensiklopediyası, Bakı, ASE 1976, I c.,592 s.
2. Kommunist (qəzet), 1935, №105
3. Ибрагимов И.А., Аббасов А.Н., Пятьдесят славных лет, Баку, «Азгосиздательство, 1971, 305 с
4. Səməndərov S.S., XX əsrin 20-30-cu illərində Azərbaycanda elmi-tədqiqat, təhsil, təlim və informasiya mərkəzlərinin təşəkkülü, Bakı, "Avropa", 2012, 222 s.
5. http://asoiu.edu.az/az/page/1-adnsu-haqqinda.

Занфира Газанфар гызы Гулиева

Из истории подготовки кадров для нефтяной промышленности Азербайджана - Азербайджанский государственный университет нефти и промышленности

Резюме

Азербайджанский государственный университет нефти и промышленности является одним из первых и старейших высших учебных заведений в Азербайджане. В статье исследуется в соответствии с техническими и экономическими требованиями каждого периода эволюционные особенности организации обучения в университете, также оценивается роль университета в подготовке кадров для нефтяной промышленности в Азербайджане в современную эпоху.

Ключевые слова: *нефть, нефтяная промышленность, институт, университет, академия, подготовка кадров*

Zanfira Gazanfar Guliyeva

Summary

From the history of training for the oil industry of Azerbaijan - Azerbaijan State University of Oil and Industry

Azerbaijan State University of Oil and Industry is one of the first and oldest higher educational institutions in Azerbaijan. The article investigated in accordance with the technical and economic requirements of each period the evolutionary features of the organization of study at the university, is also assessed the role of the university in training personnel for the oil industry in Azerbaijan in the modern era.

Keywords: *oil, oil industry, institute, university, academy, personnel training*

Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov
Daxil olub: 08.09.2020.
Çapa qəbul olunub: 14.09.2020.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az